# Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

### *Maddə 1*

Azərbaycan Respublikasının Gömrük Məcəlləsi təsdiq edilsin.

### *Maddə 2*

«Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 447; 1999, № 10, maddə 570; 2000, № 12, maddə 835; 2001, № 11, maddələr 676, 686, 695, № 12, maddə 736; 2002, № 1, maddə 4, № 8, maddə 463; 2003, № 1, maddələr 3, 16, 23; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 400, № 7, maddə 505; 2005, № 4, maddə 277, № 10, maddə 876, № 11, maddə 994; 2007, № 5, maddə 442, № 6, maddə 560, № 10, maddə 938, № 11, maddə 1053; 2008, № 7, maddə 602; 2009, № 2, maddə 48, № 12, maddə 968; 2010, № 4, maddə 276, № 8, maddə 712) 2012-ci il yanvarın 1-dən ləğv edilsin.

### *Maddə 3*

Azərbaycan Respublikasında qüvvədə olan digər qanunlar və normativ hüquqi aktlar bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğunlaşdırılanadək həmin Məcəlləyə zidd olmayan hissədə tətbiq edilir.

### *Maddə 4*

Bu Qanun 2012-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 24 iyun 2011-ci il***

***№ 164-IVQ***

***«Respublika» qəzetində dərc edilmişdir (20 sentyabr 2011-ci il, № 200) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*